# İlham Əliyevin böyük qələbəsi

## *Azərbaycanda keçirilən prezident seçkiləri Türkiyə KİV-də yüksək qiymətləndirilir*

**Azərbaycanın son 15 ildə əldə etdiyi və dünya miqyasında təqdir olunan nailiyyətləri prezident seçkilərində xalqın seçiminin yenə İlham Əliyev olacağına dair əvvəldən verilən proqnozları tam doğrultdu. Xalqın mütləq əksəriyyətinin səsini qazanan Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan sürətli inkişaf yolu keçib, beynəlxalq mövqeyini möhkəmləndirib, Cənubi Qafqazın lider ölkəsinə çevrilib. 2003-cü ildən etibarən Azərbaycana rəhbərlik edən İlham Əliyev sabitlik və dayanıqlı inkişafı təmin etməklə yanaşı, ölkəni beynəlxalq müstəvidə söz və nüfuz sahibinə də çevirə bilib.**




Xatırlatmaq yerinə düşərdi ki, hələ seçkilərdən əvvəl keçirilən sorğular da xalqın seçiminin yenə İlham Əliyev olacağını göstərirdi. Bu da təsadüfi sayıla bilməz. Ən azından ona görə ki, İlham Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaq istiqamətində ardıcıl tədbirlər həyata keçirir və bunun nəticələri insanların həyatında da özünü qabarıq göstərir.

Bundan başqa, nəzərə almaq lazımdır ki, İlham Əliyevin təşəbbüs və dəstəyi hesabına başa gələn böyük iqtisadi, enerji və nəqliyyat layihələri dünya dövlətləri üçün mühüm əhəmiyyət kəsb etməklə regionun inkişafına layiqli töhfələr verir. Qarşıdakı dövr ərzində yenə İlham Əliyevin rəhbərliyi altında Azərbaycan uğurlarını davam etdirərək onun miqyasını daha da genişləndirəcək.

Bu fəaliyyət, qeyd olunduğu kimi, Azərbaycanın dünya miqyasında mövqelərini daha da gücləndirir, ölkəmizi getdikcə daha böyük nüfuz sahibinə çevirir. Qeyd olunan xüsusda Prezident İlham Əliyevin gördüyü genişmiqyaslı işlər dünya, o cümlədən qardaş Türkiyə mediasında da geniş şəkildə işıqlandırılır.

Yeri gəlmişkən qeyd edək ki, prezident seçkilərində inamlı qələbəsi münasibətilə Azərbaycanın dövlət başçısına elə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandan təbrik gəldi. Bu, Türkiyədən Azərbaycana yüksək diqqətin real təzahürüdür. R.Ərdoğan Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində İlham Əliyevə yeni uğurlar arzulayıb. Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildiriblər.

Türkiyə Baş naziri Binəli Yıldırım da Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Burada o bildirib ki, Türkiyə dost və qardaş Azərbaycan xalqının iradəsini əks etdirən seçkilərin şəffaflıq və etimad şəraitində keçirilməsindən çox məmnundur.

Türkiyənin nüfuzlu mətbu orqanlarından biri sayılan "Milliyet" qəzeti "Rakiplerine yüzde 80 fark attı! Aliyev yeniden cumhurbaşkanı" başlıqlı xəbərində qeyd edir ki, rəqiblərini 80 faizdən çox səslə qabaqlayan İlham Əliyev yenidən Azərbaycan Prezidenti seçilib. Qəzet onu təbrik edən ilk dövlət başçısının Rəcəb Tayyib Ərdoğan olmasına da xüsusi diqqət çəkir. Türkiyənin Baş naziri Binəli Yıldırımın da təbrikinə yer ayıran materialda bildirilib ki, qardaş Azərbaycanın sabitlik, əmin-amanlıq və rifah içində yaşayan ölkə olaraq inkişaf etməsində İlham Əliyevin liderliyinin rolu, şübhəsiz ki, böyükdür.

"Yeni Şəfəq" qəzeti isə "2025'e kadar Aliyev" başlıqlı məqaləsində yazır ki, Azərbaycan məhz Prezident İlham Əliyevin fəaliyyəti ilə həm iqtisadiyyatını, həm də ordusunu xeyli gücləndirib: "Azərbaycan bundan sonra da bölgədə mövqelərini xeyli gücləndirəcək".

Qardaş ölkənin ən çox oxunan qəzetlərindən "Sözcü" isə "Aliyev 4. kez cumhurbaşkanı seçildi" başlıqlı xəbər dərc edib. Bildirilib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın dövlət başçısı İlham Əliyevə telefonla zəng edərək seçkilərdə inamlı qələbəsi münasibətilə ona təbrikini çatdırıb.

"Habertürk" qəzeti isə "Azerbaycan: İlham Aliyev, dördüncü kez cumhurbaşkanı seçildi" başlıqlı xəbəri manşetinə çıxarıb. Bildirilib ki, Türkiyə Prezidenti R.Ərdoğan İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Daha sonra qeyd olunur ki, İlham Əliyev prezident seçkilərində yenidən böyük etimad göstərdiyinə görə xalqına minnətdarlıq müraciəti ünvanlayıb .

"Sabah" qəzeti dərc etdiyi "Aliyev cumhurbaşkanlığı seçiminde oyların 86'nı aldı" başlıqlı xəbərdə bildirilib ki, Azərbaycan xalqı 4-cü dəfə İlham Əliyevə etimad göstərib. İlham Əliyevi təbrik edən ilk dövlət başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olub. O da vurğulanıb ki, İlham Əliyev xalqa müraciət edərək təşəkkürünü bildirib və qeyd edib ki, xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirib. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik.

Türkiyənin "TRTHaber" kanalı "Azerbaycan'da İlham Aliyev yeniden Cumhurbaşkanı", "NTV" kanalı "Cumhurbaşkanı Erdoğan yeniden seçilen Azerbaycan Cumhurbaşkanı'nı kutladı", "CNN Türk" kanalı isə "Son dakika... Azerbaycan'da seçimi İlham Aliyev kazandı" başlıqlı xəbərlər hazırlayıblar. Bildirilib ki, İlham Əliyevi 4-cü dəfə prezident seçilməsi münasibətilə təbrik edən Türkiyənin dövlət başçısı R.Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

İhlas Xəbər Agentliyi isə "Azerbaycan halkı bir kez daha 'İlham Aliyev' dedi" başlıqlı material verib. Türkiyənin Baş naziri Binəli Yıldırımın təbriklərinə yer verilən materialda bildirilib ki, iki ölkə arasındakı münasibətlərin istər ikitərəfli, istərsə də çoxtərəfli platformalarda dərinləşərək irəliləməsində İlham Əliyevin liderlik rolunun davam edəcəyinə və qarşılıqlı münasibətlərin qardaş xalqların xeyrinə olaraq daha da yüksək səviyyəyə çatacağına inam qətidir.

"Hürriyet", "Posta", "Takvim" qəzetləri, "Gozlemgazetesi.com", "Sonhaberler.com", "Haberler.com", "Hukukihaber.net", "Sanalbasin.com", "Karar.com", "Yenihaberden.com", "Mynet.com" və s. agentliklər isə dərc etdikləri xəbərlərdə Prezident İlham Əliyevin 86 faiz səslə 4-cü dəfə Azərbaycan Prezidenti seçildiyini diqqətə çatdırıb, dövlət başçısının xalqa müraciətlə təşəkkür etdiyini vurğulayıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***